## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ AKADEMİK RAMİZ MEHDİYEVİN ÇIXIŞI

**Hörmətli konfrans iştirakçıları,**
**Hörmətli qonaqlar,**

Hamınızı salamlayır, Qarabağın biomüxtəlifliyinə, torpaq və su ehtiyatlarına həsr edilmiş onlayn konfransın işinə uğurlar arzulayıram.

Bildiyiniz kimi, 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman xalqımız və ordumuz tərəfindən tariximizin ən şərəfli səhifələrindən biri yazılmışdır. Artıq Qarabağ torpaqları erməni işğalçılarından azad edilmiş, 30 ilə yaxın həsrətə son qoyulmuş, regionun sərvətləri, dağıdılmış tarixi və etnoqrafik abidələr qalıqlar şəklində olsa da, öz həqiqi sahibinə qaytarılmışdır.

Bu gün cənab Prezidentin sarsılmaz iradəsi və liderliyi ilə Qarabağ torpaqlarında "Böyük Qayıdış"ın əsasları yaradılır. İşğal edilmiş ərazilərdə yeni müasir infrastrukturun qurulması, smart kənd və şəhərlərin yaradılması, müxtəlif təsərrüfat sahələrinin, "yaşıl" iqtisadiyyatın təşəkkülü, tarixi, dini, mədəni abidələrin bərpası işinə başlanılmışdır. Növbəti mərhələdə isə əhalimizin Qarabağa qayıdışı və bu torpaqlarda milli tarixin və mədəni irsin yeni səhifələrinin yazılması mümkün olacaqdır.

Bütün bu fəaliyyətlər işğal dövründə ermənilər tərəfindən törədilmiş ekoloji fəlakətin elmi cəhətdən əsaslı şəkildə qiymətləndirilməsi və sənədləşdirilməsi ilə paralel surətdə aparılmaqdadır. Qarabağın biomüxtəlifliyinin, təbii ehtiyatlarının öyrənilərək xalqın xidmətinə verilməsində, kənd təsərrüfatının bərpasında Azərbaycan elminin üzərinə mühüm vəzifələr düşür. Bu vəzifələrin icrası üçün işğaldan azad edilmiş ərazilərdə elmi tədqiqatlar bərpa və inkişaf etdirilməlidir.

Hələ Vətən müharibəsinin gedişində və qələbəmizdən sonrakı aylarda bütün bu məsələlər Akademiyada hərtərəfli müzakirə edilmiş və bir sıra qərarlar qəbul edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Qarabağ Elmi Bölməsinin yaradılması üçün müvafiq təklif irəli sürmüşdür. AMEA Rəyasət Heyətinin "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında Fəaliyyət proqramı və Tədbirlər planı haqqında" 12 yanvar 2021-ci il tarixli qərarı xüsusilə mühümdür. Qərarın icrasına Akademiya ilə yanaşı, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mədəniyyət Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və digər dövlət orqanlarının aidiyyəti strukturları da cəlb ediləcəkdir.

Çox təqdirəlayiq haldır ki, qeyd edilən qərarın əsas hədəfləri bugünkü konfransın istiqamətləri sırasına daxil edilmişdir.

Əminəm ki, konfrans elmi ictimaiyyətdə böyük maraq doğuracaq, yeni dövr üçün məqsədlərin seçilməsinə, planların həyata keçirilməsinə kömək edəcəkdir.

Bu gözəl günü bizə yaşatdıqları üçün Ali Baş Komandana, Azərbaycan Ordusuna, qəhrəman əsgərlərimizə konfrans iştirakçıları adından təşəkkürlərimi bildirirəm.

Bir daha hamınızı təbrik edir, konfransı açıq elan edirəm.